

■ Rafiq Akif

## QAYIT

Nə biləydim əzizim,
Aylar ilə dönəcək.
Tez alışan sevgimiz,
Bir gün külə dönəcək.

Danış görüm dərdin nə?
Hicran sənə verdi nə?
Kim çatacaq dərdinə?
Xatirələr sönəcək.

Haray yetməz fələyə,
Gənclik dönməz geriyə.
Etibar yox ürəyə,
Baş sinəyə enəcək.

Qayıt gülüm amandır,
Pərvanətək dolandır,
Eşqsiz həyat yalandır,
Dünyam sənlə güləcək.

İnadından gəl əl çək,
Eşqin şərbətin içək.
Ömür yolun bir keçək,
Səninlədir gələcək.

## GÜLÜM, ÜMİD VERMƏ

Gülüm ümid vermə, yalan söyləmə,
Eşqin elə soyuq zirvə qarından.
Ötəri həvəsdir hər quru kəlmən,
Endirə bilmədim dağ vüqarından.

Hər zülmün libasın geyib əynimə,
Razıydım getməyə birgə ölümə.
Gedirəm, əlvida yoldan əyləmə,
Bezmişəm şirindil yalanlarından.

Demə ki, qurumuş eşqin göyərər,
Sinəmə çəkdiyin buzlar əriyər.
Biçarə xəstəyə məlhəm neyləyər?
Sinəm oyuq-oyuq talanlarından.

Dönüşündə alçalacaq mənliyim,
Mütiləşim qabağında baş əyim?
Boş sevdadır, bundan sonra sevməyim,
Xatirə qalacaq olanlarından.

## FƏLƏYİN QƏLBİ DAŞDIR

Eh, fələyin qəlbi daşdır,
Nə dostundur, nə sirdaşdır,
Zalım elə dərd daşıdır,
Heç demir ki insandı bu.

Heç bilmirsən nədir qəsdi?,
Şələləyir, demir bəsdi.
İmdad etmə üzü tərsdi,
Əzab çəkmək asandımı?

Kiminə az, kiminə çox,
Kimini ac, kimini tox,
Daha ümüd heç nədə yox,
Pisliyindən usandımı?

Batman gələn dağ yaralar,
Dağa dəysə dağ yarılar.
Bel bükülər, qəlb qırılar,
Yanmağı həyat sandı bu.

Rafiq sanma həyat baldı,
Kimlər yığdı, kimə qaldı.
Nə vermişdi geri aldı,
Sonunda nə qazandı bu?!

## FİKİRLƏR

Hərdən bir kəsdirib başım üstünü,
İlan kimi çalar, vurar fikirlər.
Hakim kimi qurub oz kürsüsünü,
Qarşımda məhkəmə qurar fikirlər.

Əl çəkmir başımdan bir an beləcə,
Yolumda dağ olub, qısnayıb küncə.
Rahatlıq verməzlər mənə ölüncə,
Əridər şam kimi, yorar fikirlər.

Hər mənasız günüm mənə dərd olur,
Azalmır çəkisi, elə hey dolur.
Ömrün çiçəkləri açmamış solur,
Hər səhər sərasər durar fikirlər.

Fikirlər böyüyüb dərd olur hərdən,
Mənim qismətimə çən enir göydən.
Keçir qəm qatarı hər gün üstümdən,
Qəlbimə nisgili salar fikirlər.

## MƏNİ

Heç dərdlərə əyilməzdim,
Bu nə dərddi əydi məni?
Nadanlara döyülməzdim,
Dərd, ehtiyac döydü məni.

Yoxuşlarda yorulmazdım,
Düz yolumdan burulmazdım,
İlğımlarda yollar azdım,
Səhralarda qoydu məni.

Xoşbəxtliyim keçdi yandan,
Puç dünyanı qanan andan.
Tale düşmən, yaranandan.
Nəsimitək soydu məni.

Dönük rüzgar hardan əsdi?
Yollarımı tutub kəsdi,
Ürək dözmür daha bəsdir,
Qəlpə-qəlpə oydu məni.

Rafiq ümüd quru səsdir,
Mübarizən çox əbəsdir,
Sığındığım dar qəfəsdir,
Tənhalığım duydu məni.

## DAHA NƏ İSTƏYİRSƏN?

Daha nə istəyirsən?
Aldığını almısan.
Məcnun edib çöllərə,
Dərdə, qəmə salmısan.

Daha nə istəyirsən?,
Tək quruca can qalıb.
Solmaz tər bənövşəsən,
Mənim bağçam saralıb.

Daha nə istəyirsən?
Ayrı-ayrı qütbük biz.
Ümüd etmə bəxtə sən,
Ayrı düşüb yerimiz.

Qismət dönük, yol uzaq,
Yollarımız qovuşmaz.
Yüz çevirək, yüz yozaq,
Taleyimiz barışmaz.

Daha nə istəyirsən?,
Özün belə istədin.
Dilinlə can deyirdin,
Qəlbən nifrət bəslədin.

Unutmaram o çağı,
De kim səni unudar?
Çəkdirmə gəl bu dağı,
Ahım dəniz qurudar.

İstədiyin nə varsa,
Qoparmısan canımla.
Bu sevgiyə yox deyim,
Möhür vurum qanımla.

## APAR MƏNİ

Deyirlər ki, uzaq yerdə həyat var,
Orda şəri, vay-şüvəni yel qovar.
Burda bezdim ağlamaqdan, yerim dar,
Allah bəsdir, qara günüm ta yetər,
Apar məni o vüsalın dalınca.

Deyirlər ki, var orada bir dəniz,
Salır şölə dalğasına ay bəniz.
Burda qalsam darıxacaq ay mənsiz,
Məşəqqətli ömür sürdüm, can itər,
Apar məni o vüsalın dalınca.

Deyirlər ki,orda ömür okean,
Coşan dərya sevgi dolu bir ümman,
Möcüzədir nə qaçan var, nə qovan,
Burda qalsam dərd üstünə dərd bitər,
Apar məni o vüsalın dalınca.

Bir vaxt vardı cavan, xoşbəxt, şən idim,
Bu dünyada çoxlu cəfa, qəm yedim.
Bu həsrətdən o vüsala qoy gedim,
Bilməzdim ki, sevinc məndən yan ötər,
Apar məni o vüsalın dalınca.

Xam xəyalın uğrunda çox gəzmişəm,
Ağır dərdin acısına dözmüşəm.
İllər ötüb öz bəxtimdən küsmüşəm.
Payız düşüb bu sevdanı çən örtər,
Apar məni o vüsalın dalınca.

## SEVGİ İSTƏYƏN GÖZƏL

Məni dərdli görüb dərdini
bölüşmək istəyən gözələ.
Demə mənə yaxın gəl,
Tənhalıqdır tək yerim.
Sevgi istəyən gözəl,
Dərddən başqa nə verim?
Uşaqlıqdan nəhsdəyəm,
İçimdə lərzə yaşar.
Yaxın durma xəstəyəm,
Üstünə dərd yapışar.
Odlanır yer kürrəsi,
Yükü sinəmi əzir.
Söz tapmıram deyəsi,
İçimdə məzar gəzir.
Qələmimdən damır qan,
Məxvərimdən qoparam.
Bundan sonra rahat can
Yalqızlıqda taparam.
Suyum suya qarışmır,
Odum odda alışmır,
Mən ürəyin quluyam,
Dediyimlə barışmır.
Barışmır ki,barışmır.

## QOCALIQ

Cahanı rəngbərəng görən gözlərim,
İndi itib nuru ağ, qara görür.
Vurnuxan, çağlayan arzularım da,
Kamına yetmədən köksümdə ölür.
Hərdən istəyirəm köçü unudam,
Yatmış vulkan kimi püskürsün odum.
Fəqət gəncliyimi göyə sovurdum,
İndi xatirələr üzümə gülür.
Al günəş qüruba çökərsə əgər,
Kainat zülmətdən donunu geyər.
Bundan sonra həyat de nəyə dəyər?
Zaman bıçaq kimi çarəni bölür.
Nə edim dağıldı gənclik qalası,
Sonu qismət dörd divarın arası,
Çarə etməz dünya pulu-parası,
Səndən öncə göydə ulduzun sönür.
Ömrün qürub çağı-illərim xəzəl,
Görəsən harada haqlayar əcəl.
Rafiq, ümidlərə çatmayanda əl,
Həyatda varlığın xəyala dönür.